# Məktəbdə yubiley tədbiri



XX əsr Azərbaycan ədəbiyyatı tarixində xüsusi çəkisi olan Abdulla Şaiq gənc nəslin təlim-tərbiyəsində müstəsna rol oynamışdır. Şair bütün yaradıcılığı boyu uşaq ədəbiyyatına sadiq qalmışdır. O, maraqlı mənzum nağıl və hekayələri ilə uşaqları sevindirirdi. Azərbaycanda uşaq dramaturgiyasının yaradılması məhz onun adı ilə bağlıdır. A.Şaiqin yaradıcılığı çoxcəhətlidir. Bu yaradıcılığa əyanilik, obrazlılıq, canlılıq, konkretlilik, inandırıcılıq xasdır. Şeirlərində incəlik və həssaslıq açıq-aydın hiss olunur. Obrazlarının dilində sadəlik və özünəməxsusluq vardır. Bütün bu xüsusiyyətlər Şaiq yaradıcılığını bu gün də aktual və sevilən edir. Şairin anadan olmasının 135 illik yubileyi münasibətilə Bakıdakı 221 nömrəli tam orta məktəbdə keçirilən yubiley tədbiri bütün bunların əyani sübutudur. Məktəbin 2 b sinif şagirdlərinin və sinif müəllimi Zülfiyyə Qənbərovanın təşəbbüsü ilə keçirilən tədbir möhtəşəmliyi ilə yaddaqalan oldu.

Şagirdlərin tədbirə xüsusi həvəs və sevgiylə hazırlaşmaları şairin əsərlərinə çəkilmiş rəsmlərdən ibarət sərgidə belə hiss olunurdu. Uşaqlar şairin mənzil-muzeyində olmuş, orada gördüklərindən və oxuduqları əsərlərdən bəhrələnərək müxtəlif əl işləri hazırlamışdılar. Tədbir həmin sərgiyə baxış keçirməklə başladı. Şagirdlər şairin müxtəlif şeirlərini, şeirlərinə bəstələnmiş mahnıları ifa etdilər. “Qərənfil”, “Bənövşə”, “Qızılgül”, “Zanbaq”ın ətri zalda duyulurdu. Şairin obrazlarının dili o qədər sadədir ki, uşaqlar bu obrazları sevə-sevə yaratmışdılar. “Tülkü həccə gedir”, “Tıq-tıq xanım” əsərlərinin səhnələşdirilməsi xüsusi maraqla qarşılandı.

Şagirdlər şairin sözlərinə bəstələnmiş uşaq mahnılarını həvəslə ifa etdilər.

Tədbirdə A.Şaiqin mənzil-muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər Talıbzadə də iştirak edirdi. O, tədbirdən xüsusi mənəvi zövq aldığını bildirib, təşkilatçılara minnətdarlıq etdi. Tədbirdə çıxış edənlər şairin yaradıcılığının uşaqların inkişafındakı xüsusi rolundan və əhəmiyyətindən danışdılar.

**Sifai SƏFƏROVA,**
*“Azərbaycan müəllimi”*